**MÜŞFİQ ZEYNALOV**

# *Ruhumun Ovuntuları*

QANUN NƏŞRİYYATI

*Kitabda şairin müxtəlif məzmunlu və müxtəlifölçülü şeirləri daxil edilib. Şeirlər, əsasən, Tanrının əbədiliyi, dünyanın faniliyi, təmizliyin və dürüstlüyün ucalığı haqqındadır. Klassik ədəbiyyatdan təsirlənən, dünyanı və tanrını dərk etməyə can atan irfani şeirlər oxucuya mistik duyğular aşılayır. Sevgi, ayrılıq, vətən və torpaq mövzularında qələmə alınan nümunələr də maraqla oxunur.*

# Dirilmiş qəlbin poeziyası

*Mənim yazdıqlarım başqa şey deyil,*
*Bir qərib yolçunun Tanrı eşqidi.*
*Mənim şairliyim şairlik deyil,*
*Bir haqq aşiqinin könül səsidi.*

Poeziya ürəyin dilidir. Ürək həqiqətlə görüşürsə, özünü yalnız şeirlə ifadə etmək istəyir. Və onun vecinə deyil ki, bunun üçün adamın müvafiq hazırlığı var, ya yox. Adaşım Müşfiqin poeziyası belə yaranmışdır. Sadəlövhlük də tapmaq olar bu şeirlərdə, sənətkarlıq defisiti də, amma bu şeirlər onun ürəyinin ruhani təcrübəsinin izlərini daşıyır. Onların dəyəri bundadır.

Bu təcrübə özünü itirməyin fərqinə varmaqdan başlayır.

*Mənim ağlım böyüdükcə*
*Özgələşdim özümə.*
*Kal qaldım, gec yetişdim,*
*Yetəmmədim özümə.*

Bəli, necə oldusa, ağlımız böyüdükcə itirdik özümüzü. Yadlaşdıq qəlbimizin dərinliyində yatan Tanrıya. Dünya dar olmağa başladı bizə. Heç nəyə sığına bilmədik, heç nə ilə ovuna bilmədik.

*Hələ bu dünyaya gəlməmişdən biz,*
*Sığınıb qalmışdıq ana bətnində.*
*Sığına-sığına yol gəlirik biz,*
*Məzara sığınnıq biz ölən gündə.*

Dağlara yadlaşdıq yavaş-yavaş, dənizə, bulaqlara, çöllərə, çiçəklərə yadlaşdıq. Dərd olmağa başladı bu hələ böyüməkdə olan ürəyə.

Kimin belə dərdi varsa, ona dərman lazım deyil. Dərd özü dərmandır.

*Bu necə dərddi belə,*
*Cana hopur xoş olur.*
*Bu necə kədər belə,*
*Qəlbə sevinc toxuyur.*

Dərd insanı transformasiya edir, təmizləyir, əslinə, mahiyyətinə qaytarır. Ölümdən dirilmək kimi olur bu. Torpağın canlanmasına bənzəyir, ağacların çiçək açmasına bənzəyir bu.

*Qurumuş çay yatağı –*
*Sən artıq bir ölüsən.*
*Bir də nə vaxt su girsə*
*Daş basmış yatağına,*
*Onda diriləcəksən.*

*İnsan, sən də beləsən –*
*Yatmış ruhun oyanıb,*
*Həqiqəti tapanda*
*Özünə dönəcəksən.*

Müşfiq bu prosesdə daxilini saran sükutdan da çox danışır. Həqiqət insan qəlbinə cavab kimi gəlmir, sükut kimi gəlir. Sualları içində əridən, yox edən, adamı rahatlığa bələyən sükut kimi... Çıxmaq istəmirsən bu sükutun içindən. Həqiqəti söz kimi gözləməyin, sükut kimi gözləyin.

*Sükut gözəl bir şeydir,*
*Gəl, biz də susaq.*

Sözlər, fikirlər də məhz o sükutdan doğulur bu zaman. Sükutu pozmursa, şeir deyirlər ona. Şeir sükutu yaralamamalıdır. Sükut qoxumalıdır sətirlər. Sükutdan danışmalıdır misralar. Sükutun həqiqətini izhar etməlidir.

*Sükut – ən böyük sözdü,*
*Sükut – ən doğru sözdü.*

Və sanki min illərdi tanıyırmışsan bu sükutu. Gözləyirmişsən. Ey qəlb, sən necə tanıdın bu sükutu? Doğmalığındanmı? Sükut səni sənə qovuşdurdu çünki.

*Bu necə sakitlikdi,*
*Çökdü mənim içimə,*
*Ruhumu təzələdi.*
*İlahi, deyəsən, mən*
*Özümə qayıdıram.*

Hər bir adam Allahı özü tapmalıdır. Heç kim onu sənin üçün tapa bilməz. Tanıda bilməz. Axtara-axtara tapmalısan, tanımalısan Onu. İçinə gələn dirilikdən tanımalısan.

*Ey böyük Yaradanım,*
*Bir nəğmə var içimdə.*
*Sənindir bu nəğmənin*
*Bəstəsi də, sözü də.*

İnsanın şair olmaq fikrinə düşməsini bəyənməmişəm heç vaxt. İnsan sözlərə niyə bəzək vursun ki? Kimi aldatmaq istəyir?

Amma şairləşən qəlbləri alqışlayıram. Uzun yolların sonunda həqiqətlə qovuşan qəlb özünü ancaq şeirlə ifadə edə bilir. Sənətkarlığı axsasa da, vurulan ilmələrdə Allahın izi onları son dərəcə dəyərli edir.

*Bir kəlmə yazammazdım,*
*Sən izn verməsəydin.*
*Sözləri ilmə-ilmə*
*Qəlbimə düzməsəydin.*

Bu şeirləri də dirilmiş ruhun poeziyası kimi qavramaq lazımdır, əziz oxucu.

Xoş mütaliələr arzulayıram sənə.

*İlahi, daşlaşan yaddaşım mənim,*
*Elə bil yatmışdı, birdən oyandı.*

**Müşfiq Ötgün,**
*filosof*

# Heyrət

Mənim yazdıqlarım başqa şey deyil,
Bir qərib yolçunun Tanrı eşqidi.
Mənim şairliyim şairlik deyil,
Bir haqq aşiqinin könül səsidi.

Ruhum hey dolaşır göyün üzündə,
Başa vurammayır getdiyim yolu.
Görəsən, ömründə bircə nəfər də
Qət edə bilibmi mən gedən yolu?

Düşsən bu dəryanın gur axarına,
Axsan, ömrün boyu hey axacaqsan.
Sanma ki, ey könül, sən bu dəryanın,
Nə vaxtsa sonuna baş vuracaqsan.

Ey böyük Yaradan, qüdrət səndədi,
Dərk etmək mümkünsüz sənin dərkini.
Əqlimin gözündə başqa rəngdədi,
İçimdə qeyb olub itən görüntü.

Bir damla gözyaşı qopdu gözümdən,
Süzüb kirpiyimin ucunda qaldı.
Dəfn olub fikirlər burulğanında,
Heyrətdən duruxdu, yerində qaldı.

# Hardan gəlib, hara gedirik

Bir vaxt anamızın bətnində ikən,
Gəlmək istəmirdik bu dünyaya biz.
Gəlib gördük ki biz, gözəldi dünya,
Onda görməmişdik bu dünyanı biz.

Qorxuruq ölümün adı gələndə,
Köçmək istəmirik o dünyaya biz.
Bəlkə də, o dünya bundan gözəldi,
Gedib görməmişik o dünyanı biz.

Bəlkə də, qocalıb əldən düşmüşük,
Bəlkə də, dilbilməz bir körpəyik biz.
Bəlkə də, dünyadan köçüb getmişik,
Bəlkə də, dünyaya heç gəlməmişik.

Taleyi, qisməti yazan Allahım,
Nə yaxşı hər şeyi gizli yazıbdı.
Nə yaxşı Allahım qoca dünyanı
Təpədən dırnağa sirr yaradıbdı.

Min yol sual etdim Uca Tanrıma,
Sordum, hardan gəlib, hara gedirik?
Tanrım cavab verdi dualarıma,
Dedi, haqdan gəlib, haqqa gedirik.